# Ramazan ayı - mənəvi saflaşma və mərhəmət ayı

(Əvvəli 4-cü səhifədə).

eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir.

Ramazan ayında fani varlıqlar sanki savaş meydanına çevrilir. İmanla nəfs bu meydanda çarpışır. Nəfs hər imanlı işi udmaq, yeyib-içmək istəyir, pis vərdişlərin davamını diləyir. İnanclar mətanətlə buna qarşı çıxır, dil yalandan, göz və könül haramdan uzaqlaşır.

Orucluğun başa çatdığı gün Fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, oruclug da qadağan idi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi. Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən dövlət səviyyəsində qeyd olunmağa başlandı.

**"Qəbələ səsi"**

# Şəhid ailələri və qazilər üçün iftar süfrəsi

Müqəddəs Ramazan ayının mənəvi dəyərlərini yaşadan və xeyirxahlıq nümunəsi olan daha bir gözəl təşəbbüs Qəbələ rayo-



nunda keçirilmişdir. Rayonun tanınmış iş adamı, xeyirxah əməlləri ilə seçilən Xanlar Kərimov tərəfindən özünün təsis etdiyi "Xanlar" restoranında Vətən uğrunda canlarını fəda etmiş qəhrəman şəhidlərimizin ailələri və qazilər üçün iftar süfrəsi təşkil olunmuşdur.

İftar süfrəsində 44 günlük Vətən müharibəsinin şəhid ailələri və qazilərlə yanaşı, 90-cı illərdə torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş qəhrəmanlarımızın ailə üzvləri və qazilər iştirak etmişlər.

Xanlar Kərimov tədbirə qatılan qonaqları böyük hörmət və ehtiramla qarşıladı. Tədbir zamanı müqəddəs Qurani-Kərimdən ayələr oxundu, şəhidlərimizin əziz ruhlarına dualar edildi. Şəhid ailələri və qazilər çıxış edərək göstərilən diqqət və qayğıya görə Xanlar müəllimə dərin minnətdarlıqlarını ifadə etdilər.

Xanlar Kərimov öz çıxışında qeyd etdi ki, Vətən uğrunda canından keçən şəhidlərimiz xalqımızın qürur mənbəyidir və onların ailələri hər zaman cəmiyyətimizin hörmət və ehtiramına layiqdir. O, dövlətimizin güclənməsindən, xalqımızın birliyindən və şəhid ailələrinə göstərilən diqqət və qayğının daim davam etməsinin vacibliyindən danışdı.

İftar məclisinin sonunda şəhid ailələri və qazilərlə birlikdə xatirə şəkilləri çəkdirildi.

Belə nəcib və mənəvi dəyəri yüksək olan təşəbbüslər cəmiyyətimizdə şəhid ailələrinə olan sonsuz hörmətin, milli-mənəvi dəyərlərimizin yaşadılmasının və həmrəyliyin bariz nümunəsidir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa və can sağlığı versin.

**Təranə ALMƏMMƏDOVA,**
**Dünya Azərbaycanlılarının Mədəniyyət mərkəzi İB Qəbələ rayon nümayəndəliyinin rəhbəri.**

# Ümumrayon iməciliyi



"Şəhərsalma və Memarlıq ili" çərçivəsində Qəbələ rayonu ərazisində ümumrayon iməciliyi keçirilmişdir. İməcilik zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, ağaclar budanmış, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmışdır. Tədbirdə idarə, müəssisələrin kollektivləri və rayon könüllüləri iştirak etmişlər.

# Güclü dövlətin zərif siması - Azərbaycan qadını

Dünyaya qəhrəmanlar bəxş edən Azərbaycan qadını. Əzəmətli, mətanətli, şərəf və ləyaqəti ilə dünyaya nümunə, sədaqət, fədakarlıq mücəssəməsi Azərbaycan qadını. Ailənin mühafizəçisi, qoruyucusu cəfakeş Azərbaycan qadını. Xalqımızın adət- ənənəsi, mənəvi borcudur cəfakeş anaya hörmət etmək. Bu gün vətənimizə mərd oğullar böyüdən, düşmənə qarşı sipər yetişdirən anaların haqqını ödəyə bilmərik. Ananın müqəddəsliyi bir də ondan görünür ki, danışdığımız dilə "ana" adını verib, ana dili demişik. Bənzərsizliyimiz, təkrarsızlığımız, bir millət, xalq olaraq böyüklüyümüz də elə buradan aydın şəkildə görünür. Ulu Tanrı bütün anaları eyni xüsusiyyətdə yaratmışdır. Onlar ən müqəddəs varlıq, əvəzedilməz simadır. Azərbaycan qadını qəhrəman, vətən torpaqlarını qoruyan Tomrisdir, düşmənə qarşı kin və nifrətini içində boğub oğlunu xalqa fəda edən Burla Xatundur, ləyaqəti ilə dillərə dastan olan Nüşabədir. Azərbaycan qadını vətən uğrunda şəhid olan oğulların anasıdır, hünər və şücaəti ilə dastana çevrilən mərd ərənlərin ömür-gün yoldaşıdır, igidliyi, vətənpərvərliyi, qeyrəti ilə tarix yazan qardaşların bacısıdır. XXI əsrdə oğullarını vətənə fəda edən qəhrəmanların anasıdır Azərbaycamn qadını. Cəsur şəhid və qazi anasıdır, xanımıdır, bacıdır mərd, ismətli Azərbaycan qadını. Dastanlarda da, tarixdə də namusu, isməti, qeyrət və şərəfi ilə səhifə yazan, dünyaya nümunə olan Azərbaycan qadını. Azərbaycan qadını XXI əsrdə 2020-ci ilin sentyabr tarixində dünyaya bir daha onu göstərdi ki, onlar qəhrəman oğulları həqiqətən də vətən üçün böyüdüb, boya-başa çatdırıb. Onların mayası, laylalarının qayəsi yalnız və yalnız vətən olub. Vətən sevgisi, yurd məhəbbəti anaların şirin laylalarında, öyüdündə, nəsihətində canlarına-qanlarına hopub. Bəli! Azərbaycan qadını bütün dövrlərdə belə olub. Dövlət müstəqilliyimizin bərpasından sonra da Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Azərbaycan qadını tarix boyu müqəddəs ana şərəfini uca tutaraq öz mübarizliyi ilə tanınmışdır. Ənənələrimizi yaşadan Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunu bütür. dünya gördü. Azərbaycan qadını bu gün ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir, bir ana kimi sözünü deyir, fəal vətəndaş kimi çalışır. Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə yanaşı döyüş meydanlarında da şücaət göstərmişdir. Bu gün Azərbaycan qadınları cəmiyyətin aparıcı qüvvəsidir. Tarixən milli əxlaqi dəyərlər, adət-ənənələr, ana dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövrlərin sınağından çıxa bilib. Müasir dövrümüzdə elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlarımız Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir. Azərbaycan qadını gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, xalqa, cəmiyyətə layiqli övlad kimi yetişməsi naminə üzərinə düşən ağır yükü şərəflə daşımaqdadır. Dövlət müstəqilliyimizin bərpasından sonra ötən iyirmi il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə o öz nüfuzunu ilbəil artırmağa müvəffəq olmuşdur. Bütün bunlar Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzunu daha da artırıb. Azərbaycan qadını hər zaman öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayır. Fədakar qadınlarımız yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə, sarsılmaz gücə malik Azərbaycan qadını bu gün də tükənməz daxili potensialları ilə xalqa və cəmiyyətə fədakarcasına xidmət edir. Şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi müasir Azərbaycan xanımları öz dərin zəkaları və şərafəti ilə tarixə şanlı səhifələr yazmışdır. Bir sözlə, Azərbaycan qadını bütün dövrlərdə dövlətə öz sədaqəti və fədakarlığı ilə seçilmişdir.

**İlhamə SEYIDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

# Haray çəksən qayalarda səslənər adın...

**Vətən hardan başlanar**

İnsanın həyatında hadisələr acısı ilə, şirini ilə hər biri bir xatirəyə dönüb yaddaşına həkk olur. Bu xatirələr ömrün mənası, ömrə rövnəq verən xatırlamalar sayılar. Uşaqlıq xatırlamaları şirin bir nağıl kimi yazılır yaddaşa, axı körpəykən o xatirələrdə dərin məna axtarılmır, acısı da olsa sadəcə nağıla bənzədilir, bir adi hal kimi qarşılanır. Bu isə uşaqlıq dərrakəsindən irəli gəlir. Ancaq insan özünü dərk edən sonra yaşadığı həyatda qarşılaşdığı hər hadisə nağıllıq missiyasından çıxaraq gerçək həyatın özünə çevrilir, ömür boyu həyatını "izləmədə" qalır. Çünki insan yaşlandıqca həyatı bir fəlsəfə sanır və məntiqlə düşünür.

İnsan ömründə torpaq, Vətən, Ana kəlmələri dünyasını dəyişənə kimi onun həyat yolunun davamında bir avanqard rolunu ifadə edir. Torpaq Vətəndir, Vətən isə Anadır. Hər üç kəlam insan ömrünün var olması, təzahürüdür.

Torpaq vətənləşərkən qiymətli olur. Onu vətənləşdirən isə onu sevərək yaşayan və uğrunda canını fəda edən ana övladlarıdır. Vətən insanın yaşadığı məkandan başlanır. Çünki bu məkanda dünyaya göz açan, havasını udan, suyunu içən, torpağının yetişdirdiyi naz-nemətlə böyüyən insan həm onu, həm də ona həyat verən, onu böyüdən ana-atanın sayəsində isti bir ocağı, qan bağı olan insanları - doğmaları ilə birgə evdə yaşayır. Bu ev elə Vətən deməkdir. Bu ocaq, bu ev ona müqəddəs sayılar və bu müqəddəslik üçün insan ona ən şirin nemət olan canını belə qurban verər. Bax, bu zaman yaşadığı



torpaq qiymətlənər, hörmətlənər, ona olan sevgi sonsuz olar - torpaq isə vətənləşər.

**Qəlb acısı**

Qarabağ Azərbaycanın dilbər guşəsi sayılmış, o torpaqlar əsrarəngiz gözəlliyi ilə dünyanın əksər yerlərində tanınmışdır. Torpaqlarının yeraltı və yerüstü - hərtərəfli zəngin olması bəzi dövlətlərin maraq dairəsində olmuşdur. Məhz buna görə də həmişə başı "bəlalar" çəkmiş, uğrunda daha çox qanlar tökülmüş, vətən kimi də vətənləşərək igidlər Vətəni kimi tanınmışdır. Bu torpaqlar uğrunda mübarizə yalnız orada məskunlaşan insanları deyil, ümumilikdə bütünlüklə Azərbaycan xalqının yaşadığı məkanlardan asılı olmayaraq hər bir övladını bir amal uğrunda birləşdirmişdir. Xalqın sevinci də bir olmuşdur, acısı da.

Şuşa dağlar qoynunda yerləşən Azərbaycanın gözəl məkanlarından biridir. Ramella xanım da bu gözəlliklər diyarının vətəndaşı olmuş və onu həmişə sevən bir insan kimi yaşamışdır. Uşaqlığı, yeniyetməlik çağları məhz Şuşada keçmiş, o yurdun dağ havası, gözəllikləri qəlbinə hopmuşdur. Onun Şuşadan ayrılığı qəlbini daha çox ağrıtmış, həsrəti keşən 30 ilə yaxın bir dövr 30 əsrə bərabər olmuşdur. Həsrət yaddaşının ən qəmli nəğməsi, ən acı rəsm əsəri, sözlərinin hüznü, baxışlarının dərinliyində gizlənən mükəddərliyi olmuşdur. Axı insan həyatı dərk edən, gənclyinə addım atdığı bir dövrdə vətəndə "vətənsizləşməyin", lüğətimizə, hətta dialektimizə belə yaraşmayan "qaçqın, köçkün" titullarının mənəvi ağırlığı altında yaşamağın acısını daha dərindən, daha məntiqli dərk edir. Bu isə insan ömrünü həsrət libaslı, arzularını isə "qandallı" edir. Əlbəttə mənəvi baxımdan. Real həyata davam etsə də, mənəvi baxımdan sevinc hissləri sanki "blokadaya" alınır. Axı Ramella xanım ailəsi Şuşanı tərk edərkən 18 yaşında idi...

**Həyat xronikası**

Ramella Quliyeva 1974-cu ildə Şuşa rayonu İmamqulular kəndində iyulun 10-da anadan olmuşdur. 1981 - 1991-ci illərdə həmin məktəbi əla qiymətlərlə başa vurmuşdur. Hər kəs məzun olarkən keçirdiyi toplum arzular hissi qəlbinda

**(Ardı 6-cı səhifədə).**